**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON MƏHKƏMƏSİNƏ**

**İddiaçı**: ___________(ad, soyad, ata adı)_________________

**Ünvan**: _____ (qeydiyyat və faktiki yaşadığı ünvan) ___________
**Elektron ünvan (email)**: _________________________
**Əlaqə telefon nömrəsi**: ___________________________

**Cavabdeh**: ________(ad, soyad, ata adı)________________________

**Ünvan**: _____ qeydiyyat və faktiki yaşadığı ünvan __________________
**Elektron ünvan (email)**: _______________ ____________
**Əlaqə telefon nömrəsi**:______________________________

# İDDİA ƏRİZƏSİ

(uşağın digər valideynin razılığı olmadan ölkənin hüdudlarından kənara çıxarılmasına dair)

**İşin faktiki halları:**

Cavabdeh _________ ilə mən _______-ci il tarixində rəsmi nikaha daxil olaraq, ailə qurmuşam. Birgə nikahdan yetkinlik yaşına çatmayan ________-ci il təvəllüdlü _____________(ad, soyad, ata adı) övladımız var.

Binəqədi Rayon Məhkəməsinin _______________ tarixli qətnaməsi ilə aramızda olan nikah pozulub və bu qətnamə əsasında ________qeydiyyat şöbəsinin __________-ci il tarixli____nömrəli qeydi ilə nikahımıza xitam verilərək, boşanma haqqında şəhadətnamə verilib.

Yuxarıda qeyd edilən məhkəmə qətnaməsinə əsasən, yetkinlik yaşına çatmayan _________ci il təvəllüdlü ____________(ad, soyad, ata adı) mənim himayəmə verilib, cavabdehdən isə qanunla nəzərdə tutulan alimentin tutulması qət edilib. Beləliklə, həmin vaxtdan yetkinlik yaşına çatmayan ______________ci il təvəllüdlü ____________(ad, soyad, ata adı) və __________ci il təvəllüdlü ____________qızı himayəmdə saxlanılır.

Məhkəmənin nəzərinə çatdırmaq istəyirəm ki, cavabdeh heç bir vaxt aliment ödəməyib, uşağın təlim və tərbiyəsində, zəruri maddi və mənəvi ehtiyaclarının təmin olunmasında iştirak etməyib və ümumiyyətlə, boşanma ilə bağlı ərizəni məhkəməyə təqdim etdiyim vaxtdan uşaqla görüşməyib, heç bir əlaqə saxlamayıb.

Uzun müddətdir ki, cavabdehin harada olması barədə nə mənim, nə də ki, bildiyimə görə, cavabdehin qohumlarının məlumatı var.

Hazırda övladımın mənəvi inkişafı üçün onun xarici ölkəyə səyahət etmək zərurəti yaranıb. Bununla bağlı cavabdehdən notarial qaydada yazılı razılıq əldə etmək cəhdlərim boşa çıxıb, çünki cavabdeh bizimlə heç bir əlaqə saxlamır və cavabdehin yeri mənə məlum deyil. Bu səbəblərdən belə bir razılığın əldə edilməsi mümkün olmayıb.

Buna görə də cavabdehin (digər valideyn kimi) razılığı olmadan uşağın ölkənin hüdudlarından kənara çıxarılmasına razılıq verilməsi barədə qətnamə qəbul edilməsini haqlı hesab edir və bunu Məhkəmədən xahiş edirəm.

**Tələbin hüquqi əsasları:**

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 11.1-ci maddəsinə əsasən, bu Məcəllənin 11.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynləri, övladlığa götürəni, himayəçisi və ya qəyyumu

ilə gedə bilər. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynlərinin biri ilə getdikdə, digər valideynin notarial qaydada təsdiq edilmiş razılığı tələb olunur. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən tək getdikdə valideynlərinin, valideyn himayəsindən məhrum olduqda isə onu övladlığa götürən şəxsin, himayəçisinin və ya qəyyumunun notarial qaydada təsdiq edilmiş razılığı tələb olunur. Həmin şəxslərdən **birinin razılığı olmadıqda, yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.**

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Konstitusiyamızın 34-cü maddəsinə əsasən, ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 49.3-cü maddəsinə əsasən, uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir.

Ailə Məcəlləsinin 50.3-cü maddəsinə əsasən, valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.

Ailə Məcəlləsinin 58.1-ci maddəsinə əsasən, valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar.

Ailə Məcəlləsinin 61.1-ci maddəsinə əsasən, uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən, valideynlərin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi təsir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır.

Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasının 3-cü maddəsində deyilir ki, **uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir, istər bu tədbirlər sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr tərəfindən görülsün, istərsə də məhkəmələr, inzibati və ya qanunvericilik orqanları tərəfindən görülsün**. Həmin Konvensiyanın 27-ci maddəsinin 2-ci bəndinə əsasən, valideynlər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz qabiliyyətləri və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyət daşıyırlar.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 8-ci maddəsinə əsasən, hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.

"Elşolts Almaniyaya qarşı" işi üzrə Avropa Məhkəməsinin qərarında deyilir ki, Konvensiyanın 8-ci maddəsi tələb edir ki, dövlət hakimiyyəti orqanları uşağın maraqları ilə valideynlərin arasında ədalətli tarazlığa riayət etsinlər və tarazlaşdırma prosesində uşağın yuksək maraqlarına xüsusi əhəmiyyət verilməlidir, həmin maraqlar onların xarakterindən və ciddiliyindən asılı olaraq valideynlərin maraqlarından üstün tutula bilər. Xüsusən, 8-ci maddəyə əsasən, valideyn uşağın sağlamlığına və inkişafına ziyan yetirə bilən tədbirlər görmək hüququna malik ola bilməz.

**Əlavə qeydlər:**

Məhkəmənin diqqətini bir daha işin faktiki hallarına cəlb edərək, qeyd etmək istərdim ki, biz faktiki ayrıldıqdan etibarən, yəni _____ci il tarixindən bu günə kimi cavabdeh uşaqla maraqlanmayıb, onun mənəvi və mədəni inkişafına hər hansı töhfəsi olmayıb və

onun yetişdirilməsi və ehtiyaclarının qarşılanması üçün aliment ödəməyib. Beləliklə, birgə nikahdan dünyaya gələn yetkinlik yaşına çatmayan _________ci il təvəllüdlü ________________ (ad, soyad, ata adı) ______qızı tam olaraq mənim effektiv himayəmdədir. Övladımızın beynəlxalq olimpiadalarda iştitak etmək imkanı və xarici ölkəyə getmək zərurəti yaranıb. Bu kimi tədbirlərdə iştirak etmək uşağın inkişafında çox böyük rol oynaya bilər. Bundan başqa, uşağın mənimlə birlikdə xarici ölkələrə səyahət etmək istəyi də var, bu da onun mədəni və mənəvi inkişafına müsbət təsir edə bilər. Beləliklə, uşağın xarici ölkələrə səyahət etmək ehtiyacı var, lakin cavabdehlə heç bir əlaqə olmadığı üçün onun razılığını almaq mümkün deyil. Belə olan halda uşağın digər valideynin razılığı olmadan ölkənin hüdudlarından kənara çıxarılmasına razılıq verilməsi barədə məhkəmə qətnaməsi qəbul edilməlidir.

**TƏLƏB:**

Yuxarıda sadalananlara və AR MPM-in 149-151-ci maddələrinə əsasən, məhkəmədən

**XAHİŞ EDİRİK:**

Himayəmdə olan ______________(ad, soyad, ata adı) yetkinlik yaşına çatmayan __________ci il təvəllüdlü _________________(ad, soyad, ata adı)___________ qızının cavabdeh ______________(ad, soyad, ata adı)____ oğlunun razılığı olmadan istənilən anda Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasına icazə verilməsi barədə qətnamə qəbul edəsiniz.

**Qoşma:**

1. İddia ərizəsinin surəti;
2. Dövlət rüsumunun ödənilməsi barədə qəbz;
3. İddiaçının şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
4. Uşağın doğum şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
5. Yaşayış yerindən arayış və MAPS arayışı;
6. Məhkəmə qətnaməsinin surəti;
7. Boşanma haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
8. Digər sənəd və sübutlar (uşağın respublika səviyyəli olimpiadalarda iştirakı barədə, cavabdehin axtarışı barədə ərizə və cavabların surəti);
9. Mediasiya arayışı.

**İmza: ____________________________________/ iddiaçı**

**Tarix:____________________________________ -ci il**